kaspi.-2017.-8-10 aprel.-S.23.



# QIRMIZI

hekayə

■ Aydın Tağıyev

İsmayıl ata-anasının ona verdiyi adı ilə fəxr edir, öyünür, az qala lovğalanırdı. Hər il Qurban bayramı keçiriləndə xüsusilə yerə-göyə sığmırdı.

Eşitdiklərindən, oxuduqlarından belə başa düşmüşdü ki, bu bayram onun ulu, babası olmuş İsmayılın adı ilə bağlıdır.

Aylarla ət üzünə həsrət qalan ac-yalavacların da o gün Qurban tikəsi dadmalarını fikirləşən İsmayıl sevinər, özünü səbəbkar sayıb məmnun qalardı.

...Düzdür, İsmayılın elə bir dərin savadı yox idi. Oxuyub öyrənməyə, eşidib bilməyə də nə vaxtı-macalı var idi, nə də imkanı, həvəsi... Ancaq İsmayıl da tərsin biri idi.

İsmayılın işi-peşəsi canına cəfa qılıb arvad-uşağının gündəlik halal ruzisunu canı bahasına da olsa qazanmaq idi. Və İsmayıl da o gündəlik çörək pulunu gözünü açıb gördüyü, ayaq açıb yeridiyi bu balaca qəsəbədə istər toy, istərsə də yas məclislərində qolunun gücü, alnının təri ilə qazanırdı. Əli işdə olsa da, həmişə bir qulağı səsdə olardı. İsmayıl gözünə ağıllı-savadlı dəyənlərin söz-söhbətinə az qala nəfəsini içinə qısıb huş-quşla qulaq asar, onlardan eşitdiklərini yadında saxlayar, yeri gələndə özünə bab məclislərdə xüsusi ahənglə danışıb xırıd etməkdən həzz alardı, belə vaxtlarda yorğunluğunun da acısını sanki canından çıxarardı...

İsmayıl elə bir iş-güc, vəzifə, səlahiyyət sahibi, var-dövlət, mal-mülk yiyəsi də deyildi. Günaha batmaq üçün bəndədə ya imtiyaz olmalı idi, ya da pul-para... Bir parça ruzi, yavanlıq dalınca sübh erkən yayda isti, qışda soyuq yorğan-döşəyindən olub ac-yalavac “səndən mədət!” deyib öz kasıb komasından çıxanın, gecədən keçmiş yorğun-arğın geri dönənin, sonra da kasıbın olanından yavanlıq edib yorğan-döşəyinə yıxılıb yorğunluqdan daş kimi düşənin biri nə günahın yiyəsi ola bilərdi ki?..

Və... Bu hesabla İsmayılın heç savab yiyəsi olmaq imkanı da yox idi. Gündə neçə rükət namaz qılıb Tanrısına ibadət etməyə İsmayılın nə vaxtı var idi, nə də macalı. Özü borc-xərc içində itib bata-bata fitrə, zəkat verib necə savab qazana da bilərdi ki?..

İsmayılın bunları fikirləşib götür-qoy etməyə gündüzlər iş-gücdən başı ayılmırdı. Gecələr isə yuxusu ərşə çəkilən vaxtlarda yorğun-arğın olsa da, bunları yada sala-sala yayda isti, qışda soyuq yerinə qor düşürdü. Özlüyündə belə qərara gəlirdi ki, yəqin ki, belə ömür-gün sürə-sürə əcəl bir gün başının üstünü alanda heç şübhəsiz axirətdə yeri uca Yaradanın öz günahkar bəndələrinə elə bəri başdan xəbərdarlıq edib nişan verdiyi cəhənnəmdədir... Dağı arana, aranı dağa daşıya-daşıya bəzən də, sakitləşib toxdayırdı ki, xeyr, ha...

Toxdaqlığı da bu sarıdan idi ki, əşi, savab qazanmaq imkanı olmadığı kimi, elə günaha batmaqdan da uzaqdır. Yəqin ki, elə bu da rəhmdil Allahın ona bir lütfü, mərhəmətidir. Toyuğa “kiş” deməyə cəsarəti, hünəri çatmayan İsmayıl kimə bir pislik, yamanlıq edə bilərdi ki, günah yiyəsi də olaydı?.. Belə düşünə-düşünə İsmayıl sevinər, toxtardı ki, Allah onu “eşidir...”

* * *

Allah kasıb, fağır, üzüyola, aciz bir bəndəsi kimi, əlbəttə, İsmayılı eşidirdi və bu İsmayılın da istədiyi-dilədiyi bəs nə idi?

Gec yatıb tez duran İsmayıl son vaxtlar nədənsə yuxularını yaman qarışdırmışdı. Qəribə idi. Gözünü yuman kimi İsmayılın yuxularına rənglər girirdi. Ağ, qırmızı, sarı...

Hətta bir gecə övrəti mənalı-mənalı:

- A kişi, demə, səsin də varmış, - deyə onu yuxudan oyadıb yerindən eləmişdi.

İsmayıl mağmın-mağmın onun üzünə baxanda arvadı lağ etmişdi; Yuxuda mahnı oxuyurdun, - demişdi, - özü də bilirsən hansı mahnını: “Ağ gül, qırmızı gül, bir də sarı gül...” -Arvadı gülüb onu yamsılamışdı da: “Yarın bağçasında üç gül bitibdir...”

Göy qurşağı - Fatma nənənin hənasının rəngləri idi - İsmayıl bunu uşaqlıqdan bilirdi. Ağ, qara, qırmızı, sarı, yaşıl, mavi...

İsmayılın bildiyicə dünya binə olandan ilk əvvəl əsas yeddi rəng mövcud imiş, qalanlar isə sonradan həmin o yeddi rəngin qarışığı idilər. Qarışıq o rənglərlə İsmayılın işi yox idi. Elə bil son vaxtlar işi-gücü qurtarmışdı. Yatanda da, duranda da rənglər ona rahatlıq, aman vermirdi, başı rənglərə qarışırdı. Rənglər gözünün qabağından çəkilmirdi. İsmayılın ağ gündüzü qara olmuşdu. Nə illah edirdisə rənglərdən qaçıb canını qurtara bilmirdi. İş bunda idi ki, lap qabaqlar yatıb arabir yuxu görəndə o yuxusunda baş verənlər də ağ-qara rəngdə olardı. İsmayıl ancaq indi rəngli yuxular görürdü. Ağ, qara, sarı, qırmızı, yaşıl, mavi...

Yuxudan hövlnak ayılan İsmayıl düşüncələrə dalır, fikri-fikrə calanırdı. Nə istədiyini, nə axtardığını heç özü də doğru-dürüst bilmirdi ki, elə bu da onu çaşdırırdı, tapdığı bir tikə çörək də zəhərə dönürdü...

Ağ rəng qaraya, qara da öz növbəsində ağa, sarı yaşıla, qırmızı maviyə qarışıb İsmayılın gözləri qarşısında özünün də baş açmadığı bir hərc-mərclik yaradırdı. (Bu qarmaqarışıqlıq da İsmayılın nəzərində dünyanı kəllə-mayallaq çevirirdi. Və indi gəl belə dünyada yaşayıb axirətini qazan ki, cəhənnəmə vasil olmayasan!.. Gecə yatıb sabahın intizarı ilə yaşaya biləsən...

İsmayılın hərdən rənglərə ürəyi yanır, yazığı, rəhmi gəlirdi. Ağ rəngi yox etmək qaranın əlində nə idi ki? Bir dəfə üstündən çək, yerli-dibli qeyb olsun, heç kəs də ağlına gətirməsin ki, belə bir rəng olub.

Yaşılın sarıya çevrilməsi də bir elə çətin iş deyildi? Bircə dəfə əsən acı ruzgar bəs idi ki, gözünü açıb yumunca yaşılı sarı, lap belə sapsarı görəsən...

Mavi rəng də bəxti kəmlərdən idi. Başının üstündəki mavi, mavi səmanı azmı olmuşdu ki, bir göz qırpımında qarışıb bomboz, qurğuşun kimi gördüyün?! Ağa qara, yaşıla sarı, maviyə boz qənimdirsə, belə çıxır ki, qaranı ağa, sarını yaşıla, bozu da elə maviyə çevirmək də bir elə müşkül iş deyil. Belə isə qoy güclü qalib gəlsin! Ura...

Belə fikirləşə-fikirləşə İsmayılın daha rənglərə ürəyi yanmır, acığı tutmurdu. Bir-birlərindən hayıf, intiqam almağı bacarırlarsa, deməli, araya girməyə də heç dəyməz, öz işləridir, özləri də bilər...

Qalırdı təkcə qırmızı... Və çox fikirləşib əlləşsə də İsmayılın qırmızını dəyişdirməyə gücü, düşüncəsi çatmırdı...

...İş bunda idi ki, bu İsmayılın elə özünün də qırmızılığı var idi və hərdən qorxu-ürkü bilməyib sözü adamın üzünə qıpqırmızı, şax deyərdi. Başa düşürdü ki, bu qırmızılığı ona ucuz başa gəlməyəcək.

Ancaq İsmayıl tükcə də qorxub çəkinənlərdən deyildi. Yaxşı bilirdi ki, ulu babası İsmayıl gözünü qırpmadan qurban getməyə hazır imiş.